

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 147 (23.309)

*8 avqust 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qәpik


*Rəsmi xronika*



Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda olublar.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya görülən işlər və rayonun perspektiv inkişafı ilə bağlı layihələr barədə məlumat verilib.

Sonra dövlətimizin başçısı və birinci xanım Pirallahı Rayon İcra Hakimiyyəti üçün inşa edilən binada yaradılan şəraitlə tanış olublar.

Həmin gün Pirallahı rayonunda yeni inşa olunmuş Gənclər Mərkəzinin, Yeni Azərbaycan Partiyası Pirallahı Rayon Təşkilatının yeni inzibati binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərkəzin açılışında iştirak ediblər.

Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda yeni inşa olunmuş “Mirvari” Park Kompleksində yaradılan şəraitlə tanış olublar.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Pirallahı rayonunda qəzalı binaların sakinləri üçün inşa edilən kompleksə gələrək binalardakı mənzillərdə yaradılan şəraitlə tanış olublar.

*İcmal*

## Heydər Əliyev siyasi xəttinə sədaqət, dövlətçilik, təhlükəsizlik, sabitlik, tərəqqi

### *Və ya fəal yaradıcı gücə malik olan inkişafın Heydər Əliyev modeli Naxçıvan nümunəsində*

*Bu gün ölkəmizin, o cümlədən muxtar respublikamızın sosial-iqtisadi, elmi və mədəni həyatında əldə edilən böyük nailiyyətlərin əsasında fəal yaradıcı gücə malik olan Heydər Əliyev milli dövlətçilik konsepsiyası, inkişafın Heydər Əliyev modeli dayanır. Ulu öndərimizin müəyyənləşdirdiyi inkişaf strategiyasının reallaşdırılması sayəsində 20 ildən artıqdır ki, Naxçıvan Muxtar Respublikasının tərəqqisi ilə fəxr edir, qürurlanırıq. Bütün bunlar həm də nümunəvi vətənpərvərliyin, dövlətçiliyə dərin sədaqətin, sabitliyin, sosial-iqtisadi yüksəlişin təmin edilməsinin, ən əsası isə rəhbər qayğısının nəticəsidir.*

Muxtar respublikada bütün sahələr üzrə innovativ yeniliklərin tətbiq olunması, məqsədyönlü islahatların, mühüm infrastruktur layihələrinin, daha parlaq gələcəyə hesablanmış dövlət proqramlarının reallaşdırılması qədimliyi, mədəni zənginliyi, strateji əhəmiyyəti ilə seçilən diyarımızı cazibə mərkəzinə çevirib. Buna görə də Azərbaycanın tərəfdaşı olan ölkələr muxtar respublikamızla iqtisadi-ticarət, mədəni və humanitar əlaqələrini daha da genişləndirməyə böyük maraq göstərirlər.

İyulun 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Vladislav Kanevski ilə görüşü zamanı bu məsələlər xüsusilə qeyd olunub.

Ali Məclisin Sədri blokada şəraitində yaşamasına baxmayaraq, Azərbaycanın Naxçıvan Muxtar Respublikasında tələbatın yerli istehsal hesabına ödənildiyini və ərzaq təhlükəsizliyinin təmin olunduğunu diqqətə çatdırıb. Naxçıvan Muxtar Respublikası ilə Ukrayna arasında iqtisadi-ticarət əlaqələrinin həcminin artan dinamika ilə davam etdiyini bildirən Ali Məclisin Sədri ali və ümumtəhsil məktəbləri arasındakı qarşılıqlı əməkdaşlıqdan danışıb, əlaqələrin genişləndirilməsinin əhəmiyyətini vurğulayıb.

Bu gün Heydər Əliyev siyasi xəttinə sədaqət Sədərək rayonunda da davamlı inkişafı təmin edib, Heydərabad qəsəbəsində və kəndlərdə quruculuq işlərinin miqyası genişlənib, məskunlaşma artıb. Ötən əsrin 90-cı illərində işğalçı ölkənin Sədərəyə hücumu zamanı dağılan evlər yenidən qurulub, gözəl binalar tikilib. Muxtar respublikada əhalinin rahat yaşayışı, mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan kompleks işlərin tərkib hissəsi olaraq Heydərabad qəsəbəsində 7 mərtəbədən ibarət 48 mənzilli yeni yaşayış binası inşa edilib. Bu, muxtar respublikamızın inkişafının, dövlətin vətəndaşlara qayğısının, ən əsası isə dövlət-xalq birliyinin göstəricisi, düşmənə gözdağı, hər bir naxçıvanlı üçün isə sevincdir.

İyulun 2-də – ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin 50 illiyi ərəfəsində yeni yaşayış binası istifadəyə verilib.

Açılış tədbirində iştirak edən Ali Məclisin Sədri çıxışında dövlətimiz və cəmiyyətimiz üçün əhəmiyyətli bir məsələyə toxunaraq qeyd edib ki, yeni yaşayış binasının ilk sakinləri dövlət qarşısında xidməti borclarını layiqincə yerinə yetirmiş vətəndaşlardır. Həmin şəxslərin mənzillərlə təmin olunması həm də dövlətin bu kateqoriyadan olan insanlara qayğısının təzahürü, eyni zamanda digər vətəndaşlar üçün də nümunədir.

Həmin gün Sədərək rayonunda 1 şəhid ailəsinə, sağlamlıq imkanları məhdud 2 Azərbaycan Vətən Müharibəsi iştirakçısına və Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 1 nəfərə yeni mənzillərin təqdim olunması göstərilən dövlət qayğısının daha bir ifadəsidir.

Ali Məclisin Sədri mənzillə təmin olunanları təbrik edib, onlara rahat və firavan həyat arzulayıb, mənzillərin orderlərini təqdim edib.

İyulun 2-də Ali Məclisin Sədri həmin binada dövlət qurumları və xidmət mərkəzi üçün yaradılan şəraitlə də tanış olub.

Muxtar respublikada ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə edilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, bu sahədə dövlət proqramları uğurla icra olunur, əhalinin sağlam ekoloji mühitdə yaşamasına xüsusi diqqət yetirilir. Görülən tədbirlərin davamı olaraq Sədərək rayonunun Heydərabad qəsəbəsində Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin tabeliyində Sədərək Rayon Su Monitorinq Laboratoriyası yaradılıb, müasir inzibati bina tikilib. İyulun 2-də həmin laboratoriya istifadəyə verilib. Ali Məclisin Sədri açılış tədbirində iştirak edib, Sədərək rayonunda ölkə əhəmiyyətli sahənin – Su Monitorinq Laboratoriyasının istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edib.

Ali Məclisin Sədri laboratoriyada monitorinqlərin vaxtında və düzgün aparılacağına əminliyini bildirib, mütəxəssis hazırlığının diqqətdə



saxlanılması, Səhiyyə Nazirliyi ilə qarşılıqlı fəaliyyət göstərilməsi, ayda bir dəfə monitorinq nəticələri barədə məlumatların hazırlanması və mətbuata təqdim olunması barədə tapşırıqlar verib.

Laboratoriyanın fəaliyyətə başlaması, həqiqətən də, ölkəmiz və diyarımız üçün mühüm bir hadisədir. Tədbirdə çıxış edən Ali Məclis Sədrinin də qeyd etdiyi kimi, qanunların işləmədiyi işğalçı ölkədə istismar müddəti başa çatmış Atom Elektrik Stansiyasının fəaliyyət göstərməsi bölgə üçün risk yaradır. Çünki muxtar respublika işğalçı ölkə ilə sərhəddə yerləşir. Müasir laboratoriyanın qurulması sərhədlərimiz daxilində tədbirləri vaxtında görməyə və qərar qəbul etməyə imkan verəcəkdir. Su monitorinqləri zamanı işğalçı ölkədən keçməklə muxtar respublika ərazisində axan çaylarda çirklənmə qeydə alındıqda beynəlxalq təşkilatlar dərhal məlumatlandırılacaqdır. Yəni laboratoriyanın Ermənistanla sərhəd yaşayış məntəqəsində yerləşməsi ortaya çıxacaq problemlərə vaxtında müdaxilə etməyə imkan verəcəkdir. Bura həm də dünyada yerləşən su monitorinqi laboratoriyalarının xəritəsinə daxil edilib. Bu isə düşmən tərəfdən hər hansı ekoloji çirklənmə zamanı beynəlxalq ictimaiyyətin məlumatlandırılmasında böyük əhəmiyyət kəsb edir.

Muxtar respublikamızda gömrük infrastrukturunun yenidən qurulması istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq Sədərək Gömrük İdarəsi üçün yeni kompleks inşa olunur.

İyulun 2-də Ali Məclisin Sədri kompleksin inşası ilə maraqlanıb, yeni tikilinin gömrük xidmətinin tələblərinə uyğun qurulması və işıqlandırılması, keyfiyyətə ciddi diqqət yetirilməsi, təcili tibbi yardım və yanğından mühafizə xidmətlərinin təşkil olunması barədə tapşırıqlar verib.

Muxtar respublikada səhiyyənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər, müasir infrastrukturun yaradılması əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini xeyli yüksəldib. Həyata keçirilən səhiyyə islahatlarının ən mühüm cəhətlərindən biri isə muxtar respublikada icbari tibbi sığortanın tətbiqidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Fərman və Sərəncamına uyğun olaraq 2017-ci il iyulun 1-dən Sədərək, 2019-cu il iyunun 1-dən isə Şərur rayonlarında icbari tibbi sığortanın tətbiqinə başlanıb. Bu istiqamətdə işlər Kəngərli rayonunda da davam etdirilib. Həyata keçirilən kompleks tədbirlər burada da icbari tibbi sığortanın tətbiqinə imkan verir. İyulun 5-də rayonda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbir keçirilib.

Ali Məclisin Sədri tədbirdə iştirak edib, icbari tibbi sığortanın tətbiqi sahəsində işlərin başa çatması münasibətilə kollektivi və sakinləri təbrik edib. Ali Məclisin Sədri deyib: ***“İcbari tibbi sığorta vacib sahədir. Çünki səhiyyə müəssisələrinə müraciət edən insanlar lazımi səviyyədə tibbi xidmət almadıqda xarici ölkələrə üz tuturlar. Bu da ölkəmizin imicinə mənfi təsir göstərir, eyni zamanda maliyyə vəsaitləri xaricə axır. Lakin icbari tibbi sığortanın tətbiqi insanların keyfiyyətli tibbi xidmətlə təmin olunmasına imkan verəcəkdir. Kəngərli rayonunda da icbari tibbi sığortanın tətbiqi üçün dövlətimiz tərəfindən vəsait ayrılmış, müasir tibbi avadanlıqlar alınaraq quraşdırılmışdır. Artıq muxtar respublikanın üç rayonunda icbari tibbi sığorta uğurla tətbiq olunacaqdır”.***

İyulun 5-də Kəngərli rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı müşavirə keçirilib.

Aidiyyəti üzrə məlumat verildikdən sonra Ali Məclisin Sədri avqustun 1-dən rayonda icbari tibbi sığortanın tətbiq edilməsi ilə bağlı müvafiq tapşırıqlar verib, icbari tibbi sığortanın tətbiq olunacağı növbəti bölgəmizin Şahbuz rayonu olduğunu qeyd edib, bu istiqamətdə görüləcək işlərin ilin sonunadək başa çatdırılması ilə bağlı əlaqədar qurumlara tapşırıqlar verib.

Bu gün qloballaşan dünyada gedən sürətli dəyişikliklər şəraitində ayrı-ayrı dövlətlər və bütövlükdə bəşəriyyət münaqişələrin, terrorçuluğun, transmilli mütəşəkkil cinayətkarlığın artması, kütləvi miqrasiya, ətraf mühitin çirklənməsi, ərzaq, enerji problemləri və təhlükəsizliyi, separatçılıq, etnik, dini və siyasi ekstremizmin yayılması kimi faktorlarla üzləşir. Bu amillər hər bir dövlətin prioritetlərinin, təhlükəsizliyə qarşı risklərin müəyyənləşdirilməsini, həmin risklərin qabaqlanması və aradan qaldırılması üzrə adekvat tədbirlərin

*Ardı 2-ci səhifədə*

həyata keçirilməsini zəruri edir. Bu mənada, xalqa və dövlətə sədaqətlə xidmət edən, milli maraqlarımızın və mənafelərimizin keşiyində layiqincə dayanan, muxtar respublikamızın təhlükəsizliyi əleyhinə yönəlmiş təhdidlərin qarşısının alınmasında əzmkarlıq nümayiş etdirən Naxçıvan Muxtar Respublikası Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidməti sabitliyin, qanunçuluğun, hüquq qaydalarının etibarlı təminatçıları kimi çıxış edən əhəmiyyətli dövlət orqanlarıdır. Sovetlər Birliyi dövründə muxtar respublikanın təhlükəsizlik orqanları çətin şəraitdə fəaliyyət göstərsələr də, bu gün onların fəaliyyətinin təşkili və maddi-texniki bazalarının gücləndirilməsi qarşıya qoyulmuş vəzifələrin uğurla yerinə yetirilməsinə imkan verir. Bütün bunların nəticəsidir ki, muxtar respublikada təhlükəsizlik təmin olunub.

Bu gün xüsusi xidmət orqanlarının uğurlu fəaliyyətinin daha da genişləndirilməsi qarşıda duran əsas vəzifələrdəndir. İyulun 9-da Dövlət Təhlükəsizliyi Xidmətində “Naxçıvan Muxtar Respublikasında təhlükəsizliyin təmin olunması sahəsində görülən işlər və qarşıda duran vəzifələr barədə” keçirilən müşavirədə də bu məsələlərin dövlətimizin daim diqqət mərkəzində olduğunu göstərir.

Müşavirədə iştirak edən Ali Məclisin Sədri Dövlət Təhlükəsizliyi Xidmətinə və Xarici Kəşfiyyat Xidmətinə xarici dövlətlərin xüsusi xidmət orqanlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin dövlət müstəqilliyinə, ərazi bütövlüyünə, konstitusiya quruluşunun əsaslarına, iqtisadi, elmi-texniki, müdafiə potensialına və digər milli maraqlara zərər vurulmasına yönəlmiş kəşfiyyat, terror-təxribat və digər pozuculuq fəaliyyətinin vaxtında aşkarlanması, real və potensial təhdidlərin proqnozlaşdırılması, adekvat tədbirlər görülməsi, düşmən ölkənin sərhəddəki hərbi fəaliyyətinin nəzarətdə saxlanılması və bu kimi digər mühüm məsələlərlə bağlı müvafiq tapşırıqlar verib, bu vəzifələrin icrasında onlara uğurlar arzulayıb.

Sonra Ali Məclisin Sədri Dövlət Təhlükəsizliyi Xidmətinin kitabxanasında yaradılan şəraitlə maraqlanıb.

Böyük mütəfəkkirlərin, sərkərdələrin, dahilərin Vətəni olan Naxçıvanın yetişdirdiyi şəxsiyyətlərin fövqündə dayanan ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyə gəlişinin 50 illiyi ötən ay ölkəmizdə, o cümlədən muxtar respublikamızda mühüm tarixi hadisə kimi müxtəlif tədbirlərlə qeyd olunub. Bu çərçivədə ölkəmizin 50 fəal gəncinin iştirakı ilə “Heydər Əliyev siyasi məktəbini öyrənirik” Gənc Liderlər Proqramı keçirilib.

İyulun 10-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov “Heydər Əliyev siyasi məktəbini öyrənirik” Gənc Liderlər Proqramı çərçivəsində muxtar respublikaya səfər edən gənclərlə görüşüb.

Ali Məclisin Sədri gəncləri salamlayıb, səfərin təşkilatçılarına təşəkkürünü bildirərək deyib: ***“Tarixdə elə şəxsiyyətlər var ki, onların həyat yolundan danışmaq üçün bütöv bir xalqın, bütöv bir ölkənin tarixindən danışmaq lazımdır. Möhtərəm Heydər Əliyev belə şəxsiyyətlərdəndir. Onun mənalı həyatı müstəqil Azərbaycanın siyasi bioqrafiyasına çevrilmişdir. Bu gün Azərbaycan deyərkən Heydər Əliyev, Heydər Əliyev deyərkən Azərbaycan düşünürük. Bu, səbəbsiz deyil. Azərbaycanın 50 ilə yaxın bir dövrünü əhatə edən tarixi və siyasi taleyi, bu illər ərzində ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində baş vermiş dirçəliş, inkişaf və tərəqqi möhtərəm Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimizin bütün həyatını göz önünə gətirsək, keçdiyi mənalı ömür yolunu nəzərdən keçirsək, böyük ömrün yalnız bir məqsədə xidmət etdiyinin şahidi olarıq: bu – Azərbaycandır...”***

Ali Məclisin Sədri genişməzmunlu çıxışında böyük ömrün Azərbaycan naminə fəaliyyətini *altı mühüm mərhələ* üzrə ətraflı təhlil edib. Muxtar respublika rəhbəri qeyd edib ki, böyük ömrün *birinci mərhələsi* ötən əsrin 40-cı illərindən 1969-cu ilə qədərki dövrü əhatə edir. Bu dövrdə ulu öndərimiz xalq üçün xidməti hər şeydən uca tutan, dövlət təhlükəsizliyi maraqlarını milli maraqlara tabe etdirməyi bacaran istedadlı hərbi xadim kimi parlayıb. O, təhlükəsizlik xidməti leytenantından həmin xidmətin general-mayoru ali hərbi rütbəsinədək böyük bir yol keçib. Ulu öndər təhlükəsizlik sisteminin generalı və rəhbəri vəzifəsinə yüksələn ilk azərbaycanlı idi.

Ümummilli liderimizin Vətənin inkişafı naminə siyasi fəaliyyətinin *ikinci mərhələsi* olan 1969-1982-ci illər tarixdə şəxsiyyətin rolunun nəyə qadir olduğunun əyani ifadəsinə çevrildi. 1969-cu ilin 14 iyulu, sadəcə, respublika rəhbərinin seçim günü yox, bundan daha çox milli liderin rəhbərliyə gəlişi günü idi. Məhz bu tarixdən başlayaraq Azərbaycan ətalətin, geriliyin daşını atdı, öz tarixi taleyinin sahibi oldu. Ümummilli liderimizin siyasi rəhbərliyinin birinci dövründə Azərbaycan başqa müttəfiq respublikaların 50 ildə keçdiyi inkişaf yolunu 14 ilə qət etdi.

Böyük ömrün *üçüncü mərhələsi* 1982-1987-ci illəri əhatə edir. Bu dövr Heydər Əliyev şəxsiyyətinin keçmiş Sovetlər Birliyi və bütün dünya miqyasında bir daha təsdiq olunduğu dövrdür. SSRİ kimi nəhəng bir dövlətin ali rəhbərliyinə ucalmaqla xalqımızın böyük oğlu misilsiz dövlət idarəçiliyi və bacarığı nümayiş etdirdi.

Dahi şəxsiyyətin Azərbaycan naminə fəaliyyətinin *dördüncü mərhələsi* olan 1987-1990-cı illər Kreml rejiminin bu böyük şəxsiyyətə qarşı həyata keçirdiyi ağır təqib illəridir. Göstərilən təzyiqlərə, şəxsi əlaqələrinin, telefon danışıqlarının izlənməsinə baxmayaraq ulu öndərimiz sıravi vətəndaş kimi Azərbaycan üçün çalışdı, Sovet dövlətinin dağılmaqda olduğu bir şəraitdə Vətəni üçün çıxış yolları axtardı, özünün zəngin dövlətçilik təcrübəsi, müdrik məsləhəti ilə Azərbaycanı düşdüyü ağır böhrandan çıxarmaqdan ötrü bütün qüvvəsini sərf etdi.

1990-1993-cü illər tarixə ulu öndər Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü kimi düşmüşdür. Görkəmli siyasi xadimin Azərbaycan naminə fəaliyyətinin *beşinci mərhələsi* olan bu tarixi dövr şərəfli xilaskarlıq və quruculuq missiyası ilə zəngindir. Bu missiyanın öz başlanğıcını götürdüyü yer isə Naxçıvan Muxtar Respublikası idi. Tale ulu öndəri qədim diyara göndərməklə Naxçıvanı işğal olunmaq, əhalisini isə qaçqın ömrü yaşamaq təhlükəsindən hifz etdi. Azərbaycanın bu qədim torpağını xilas edən ulu öndər özünə Naxçıvan boyda abidə ucaltdı. Böyük şəxsiyyətin Naxçıvanda yenidən siyasi hakimiyyətə qayıdışı, sıravi deputat, sonralar isə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi fəaliyyət göstərməsi bu qədim diyardan başlanan müstəqillik yolunun bütün Azərbaycan siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gə-tirib çıxardı.

Ali Məclis Sədri görkəmli dövlət xadiminin Azərbaycan naminə fəaliyyətinin *altıncı mərhələsinin* 1993-2003-cü illəri əhatə etdiyini vurğulayıb. Qeyd edib ki, həmin illər kifayət qədər təlabkar, iqtisadiyyatın dirçəldilməsi, islahatların aparılması və milli dövlət quruculuğu baxımından taleyüklü bir dövrdür. O dövrdə ulu öndərimiz yalnız iqtisadi sahədə yaranmış böhranı aradan qaldırmırdı, Onun taleyinə milli dövləti yenidən qurmaq, Azərbaycanı özünə qaytarmaq kimi ağır və şərəfli missiya yazılmışdı.

Ali Məclisin Sədri deyib ki, Onun nəzəri, siyasi baxışları, tükənməz dövlətçilik irsi bütün dünyaya məxsusdur. Belə bir fikir var: bir xalqın böyüklüyü onun sayca və ya ərazicə böyüklüyü ilə deyil, bəşər tarixinə verdiyi qüdrətli şəxsiyyətləri ilə ölçülür. Bu mənada Azərbaycan xalqı böyük xalqdır ki, bəşər tarixinə Heydər Əliyev kimi dahi siyasətçi, qüdrətli dövlət xadimi bəxş etmişdir.

Görüşdə Ali Məclisin Sədri gənclərin suallarını cavablandırıb, Naxçıvanın qədim tarixinin öyrənilməsi və müasir inkişafının təmin olunması sahəsində görülən işlər barədə onlara ətraflı məlumat verib, gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Sonra Ali Məclisin Sədri gənclərlə xatirə şəkli çəkdirib, onlara hədiyyələr təqdim edib.

İyulun 13-də ümummilli lider Heydər Əliyevin Azərbaycanda rəhbərliyə gəlməsinin 50 illiyi münasibətilə tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tədbirdə çıxış edib.

Naxçıvan Dövlət Televiziyasının hazırladığı “Müstəqil və qüdrətli Azərbaycan naminə – 50 il” filmi nümayiş olunduqdan sonra “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” yubiley medalının, eləcə də Azərbaycan Respublikasının fəxri adlarının və medallarının, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gənc istedadlara xüsusi aylıq təqaüdünün təqdimatı olub.

*Bəli, 50 il bundan əvvəl ümummilli lider Heydər Əliyev tərəfindən elan olunmuş siyasi-iqtisadi müstəqillik kursu, inkişafın milli intibaha yönəldilmiş modeli ölkəmizə və muxtar respublikamıza yeni həyat bəxş edib. Özünə Azərbaycan boyda abidə ucaldan ulu öndərimiz onu inamla idarə edə biləcək lideri, rəhbəri də yetişdirib. Məhz bunun nəticəsində muxtar respublikamız abadlaşıb, başdan-başa yenidən qurulub, tikilib, ucaldılıb, zirvələrə yüksəldilib. Görkəmli dövlət xadiminin* ***“Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, universitet və məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir”*** *sözləri isə Onun əmanəti olan muxtariyyətinin bu il 95 illik yubileyini qeyd etdiyimiz Naxçıvan nümunəsində daha da möhtəşəm səslənir.*

**Rauf KƏNGƏRLİ**

## Muxtar respublikanın taxılçıları cari ildə 102 min 984 ton məhsul tədarük ediblər

*Muxtar respublikada ərzaq təhlükəsizliyinin və özünüməşğulluğun təmin edilməsi prioritet vəzifələr sırasındadır. Buna nail olunmasında kənd təsərrüfatı mühüm rola malikdir. Ona görə də bu sahənin inkişafı istiqamətində həyata keçirilən kompleks islahatlar, qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası, subsidiyaların verilməsi, müasir texnologiyaların tətbiqi, meliorasiya və irriqasiya sistemlərinin texniki imkanlarının genişləndirilməsi, keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması, məhsul istehsalçılarına güzəştli şərtlərlə kreditlərin verilməsi əkinçiliyin inkişafına öz təsirini göstərməkdədir.*



Qeyd edək ki, cari ilin məhsulu üçün muxtar respublikamızda 33 min 308 hektar sahədə taxıl əkilmişdi. Zəmilərdən 102 min 984 ton məhsul tədarük edilib, hektarın orta məhsuldarlığı 30,9 sentnerə çatdırılıb. Təbii ki, bu nəticəyə nail olunmasında bir neçə amil başlıca rol oynayıb. Bu sırada ilk olaraq dövlət qayğısını qeyd etməliyik. Məhz bu qayğının ifadəsidir ki, cari ildə də meliorasiya-irriqasiya tədbirləri davam etdirilib. Uzun illər əkilməyən və istifadəsiz qalan torpaq sahələrinə yeni suvarma kanallarının çəkilməsi, müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması əkin dövriyyəsinə yeni sahələrin qatılmasında mühüm rol oynayıb. Belə ki, təkcə 2018-ci ildə və cari ilin ilk altı ayında meliorasiya-irriqasiya sistemlərinin yenilənməsi istiqamətində Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 616, Yurdçu kəndi ərazisində 59,4 hektar sahəni əhatə edən yeni qapalı suvarma şəbəkələrinin tikintisi başa çatdırılaraq istifadəyə verilib. Muxtar respublika ərazisində yerləşən və 303,5 milyon kubmetr su tutumuna malik olan sututarlara 291,4 milyon kubmetr su ehtiyatı toplanılıb. Su istifadəçilərinə mexaniki üsulla və öz axını ilə 160 milyon kubmetr suvarma suyu verilib, təkrar suvarma nəzərə alınmaqla 134716 hektar torpaq sahəsi su ilə təmin olunub.

Aqrar sahədə nəzərdə tutulan xidmət işlərinin yerinə yetirilməsini sürətləndirmək, sahibkarların əməyini yüngülləşdirmək, onları lazımi texnika ilə vaxtında və güzəştli şərtlərlə təmin etmək məqsədilə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən 309-u 2019-cu ilin yanvar-iyun aylarında olmaqla, cəmi 2684 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası alınaraq muxtar respublikaya gətirilib. Cari ilin ilk altı ayında 172 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlıq lizinq yolu ilə icarəyə verilib, 2-si nağd yolla satılıb.

Həmçinin istehsal olunmuş məhsulların ilboyu keyfiyyətli şəkildə istehlakçılara çatdırılması məqsədilə cari ilin ötən dövründə Şərur rayonunda bir soyuducu anbar genişləndirilib, Babək rayonunda bir, Şərur rayonunda iki soyuducu anbarın yaradılması, iki soyuducu anbarın genişləndirilməsi hazırda davam etdirilir.

Həyata keçirilən belə məqsədyönlü tədbirlər isə bəhrələrini verib. Belə ki, uzun illər taxılçılıqda yaxşı təcrübə qazanmış torpaq mülkiyyətçiləri sahələrə vaxtlı-vaxtında aqrotexniki qulluq göstərib, taxıl zəmilərində yüksək məhsuldarlığa nail olmaq üçün sahələrin suvarılmasını, ziyanvericilərə qarşı müvafiq işlərin görülməsini diqqətdə saxlayıb, tələb olunan bütün təsərrüfat işlərini yerinə yetiriblər.

Artıq taxıl tədarükü başa çatıb. İlin nəticələrindən fərəhlə söhbət açmaq olar. Sərhəd bölgəsi Sədərək rayonu bu il də liderliyi saxlaya bilib. Bölgənin taxılçıları 2472 hektar taxıl zəmisindən 8788 ton məhsul toplayıblar. Bu isə orta məhsuldarlığın 35,6 sentner olması deməkdir. Ayrı-ayrı taxılçılarda bu rəqəm daha yüksəkdir. Rayonun Sədərək kənd sakinləri Fuad Qədimov 50, Qafar Zeynalov isə 45 hektar sahədə taxıl yetişdiriblər. Zəmilərə vaxtında və aqrotexniki qaydada qulluq göstəriblər. Çəkdikləri zəhmət hədər getməyib. Hər ikisi hektarın orta məhsuldarlığını 40 sentnerə çatdırıb. Fuad Qədimov deyir ki, neçə illərdir, taxılçılıqla məşğuldur. Çoxları elə düşünür ki, toxumu torpağa atdın, zəmini suvardın bununla iş bitdi. Əslində, belə deyil. Taxıl da qayğı istəyir. Bu qayğının qarşılığını verə bilsən, torpaq sənin zəhmətinin əvəzini birə-beş ödəyəcək. Mən bunu neçə illərdir ki, öz fəaliyyətimdə görmüşəm. Tədarük etdiyim taxıldan yaxın günlərdə başlayacağım əkin üçün toxumluq götürmüşəm. Bir hissəsini isə üyüdərək ailəm üçün ayırmış, qalanını da satmışam. Hazırda əkəcəyim sahələrdə şum qaldırılması ilə məşğulam. Çalışıram ki, builki əkin kampaniyasını da vaxtında başa çatdıram.

Ən böyük bölgəmiz sayılan Şərur rayonu taxıl tədarükündə 33,8 sentner məhsuldarlığa nail olub. Bu rayonda 4127 hektar sahədən 13 min 947 ton məhsul tədarük edilib. “Şərur Aqrotexservis” Səhmdar Cəmiyyətinin sədri Aqil Məmmədov deyir ki, cəmiyyətə məxsus olan texnikalarla sahələrin şumlanmasında, taxıl əkinində və tədarükündə taxılçılara yaxından köməklik göstəriblər. Hazırda cəmiyyətin dəyirmanında taxıl üyüdülməsi həyata keçirilir.

Aqil Məmmədovun özü də taxılçılıqla məşğul olur. Cari ildə o, 25 hektar taxıl əkini sahəsindən 82 ton məhsul götürüb. Bu rəqəm məhsuldarlığın 35 sentner olması deməkdir. Sahibkar bunu son hədd hesab etmir. Bundan da yüksək məhsuldarlığa nail olmağın mümkünlüyünü göstərilən hərtərəfli dövlət qayğısı ilə izah edir və belə qayğının davamlı xarakter aldığından minnətdarlığını bildirir.

Taxıl tədarükündə 3-cü yer Babək rayonuna məxsusdur. Bu bölgənin taxılçıları 10 min 610 hektar taxıl sahəsindən 33 min 707 ton məhsul tədarük edərək məhsuldarlığı 31,8 sentnerə çatdırıblar. Kəngərli rayonunun taxılçıları isə 29,4 sentner məhsuldarlığa nail olublar. Digər yerlər Naxçıvan şəhərinə, Culfa, Ordubad və Şahbuz rayonlarına məxsusdur. Aparılan təhlillər göstərir ki, əvvəlcədən həyata keçirilən hazırlıq tədbirləri hesabına torpağa bir dən belə, havayı düşməyib. Artıq 2020-ci ilin bol məhsulunun əsasını qoymaq üçün sahələrdə şum qaldırılmasına başlanılıb. İnanırıq ki, bu mövsüm də vaxtında və uğurla başa çatdırılacaq.

**Muxtar MƏMMƏDOV**

## İran gömrük xidməti nümayəndələri ilə görüş keçirilib



*Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının gömrük xidməti nümayəndələri arasında görüş keçirilib. Şahtaxtı Gömrük İdarəsində təşkil olunan görüşdə İranın Yol təşkilatının nümayəndələri də iştirak ediblər.*

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli ölkələrimiz arasında tarixi-mədəni əlaqələrin, eləcə də qarşılıqlı əməkdaşlığa əsaslanan iqtisadi-ticari münasibətlərin önəmini qeyd ediblər.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2017-ci ilin dekabr ayında Tehrana rəsmi səfərindən sonra ikitərəfli münasibətlər, o cümlədən Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikasının yaxın vilayətləri arasında əlaqələr yeni inkişaf mərhələsinə qədəm qoyub. Muxtar respublikamızda gömrük və yol infrastrukturunun müasir şəkildə qurulduğunu, bütün sahələrdə inkişafın təmin olunduğunu qeyd edən komitə sədri Naxçıvanın tranzit potensialını önə çəkib. Vurğulanıb ki, gömrük xidməti nümayəndələri arasında vaxtaşırı görüşlərin keçirilməsi qarşılıqlı əməkdaşlığın genişləndirilməsinə, eləcə də iki ölkə arasında mal və nəqliyyat vasitələrinin keçidinin sürətləndirilməsi və təhlükəsizliyinin təmin edilməsi işinə töhfə verir.

İran gömrük xidməti nümayəndə heyətinin rəhbəri, Gömrük Administrasiyasının Beynəlxalq Əməkdaşlıq Ofisinin baş direktoru Hüseyn Kaxki və Yol Təşkilatının Tranzit və Beynəlxalq Daşımalar Ofisinin baş direktoru Mənüçöhür Salmanzadə ölkələrimiz arasında mövcud olan dostluq və qardaşlıq münasibətlərinin gömrük işi sahəsini də əhatə etdiyini, qarşılıqlı əlaqələrin gediş-gəlişin və ticarət həcminin artmasına, prosedurların sadələşdirilməsinə və sürətləndirilməsinə imkan yaratdığını önə çəkiblər.

Tərəflər Culfa-Culfa gömrük sərhəd-buraxılış məntəqəsinin 24 saatlıq iş rejiminə keçirilməsinin, Şahtaxtı-Poldəşt gömrük sərhəd-buraxılış məntəqəsinin iş vaxtının 16 saata çatdırılmasının, Bakı-Naxçıvan-Bakı marşrut avtobuslarına tətbiq olunan gömrük nəzarətinin tam sadələşdirilməsinin münasibətlərin əyani göstərici olduğunu və insanların rahatlığına xidmət etdiyini qeyd ediblər.

Görüşdə Naxçıvan Muxtar Respublikasının tranzit potensialından maksimum istifadə, muxtar respublikadan Azərbaycan Respublikasının əsas ərazi vahidinə və əks-istiqamətdə hərəkət edən nəqliyyat vasitələrinin keçidi üçün prosedurların asanlaşdırılması və sadələşdirilməsi, diri heyvanların nəql olunması, o cümlədən gömrük işi sahəsində qarşıya çıxan digər vacib məsələlər müzakirə olunub. Görüş qarşılıqlı razılaşmaların əldə olunması baxımından əhəmiyyətli və səmərəli olub.

Şərqi Azərbaycan Gömrüklərinin rəisi, Təbriz Gömrüyünün baş direktoru xanım Ərəngi və Qərbi Azərbaycan Gömrüklərinin rəisi, Urmiya Gömrüyünün baş direktoru Bərkabian göstərilən qonaqpərvərliyə görə minnətdarlıq edərək müzakirə olunan məsələlərin önəmini və müştərək görüşlərin əhəmiyyətini qeyd ediblər.

Sonra xatirə hədiyyələri təqdim olunub. Qonaqlar Şahtaxtı gömrük sərhəd-buraxılış məntəqəsinin modern infrastrukturu və maddi-texniki bazası ilə tanış olub, müasir rentgen-nəzarət qurğularının iş prinsipi ilə maraqlanıblar.

**Rahil TAHİRLİ**

## AMEA Naxçıvan Bölməsinin yaradılmasının 17-ci ildönümü qeyd edilib

Bu münasibətlə keçirilən tədbiri AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq bölmənin keçdiyi tarixi inkişaf yolu və yaradılan şərait barədə məlumat verib. O bildirib ki, Azərbaycanda elmin inkişaf etdirilməsinə daim diqqət və qayğı göstərən ümummilli lider Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının geosiyasi vəziyyətini nəzərə alaraq 2002-ci il avqustun 7-də Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin yaradılması haqqında sərəncam imzalayıb. Sərəncama əsasən olaraq qısa müddətdə bölmədə 6 elmi-tədqiqat institutu – Tarix, Etnoqrafiya və Arxeologiya, eləcə də İncəsənət, Dil və Ədəbiyyat, Təbii Ehtiyatlar, Bioresurslar institutları, Batabat Astrofizika Rəsədxanası və Əlyazmalar Fondu yaradılıb.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısı nəticəsində Naxçıvan Bölməsi üçün iki üçmərtəbəli bina ayrılıb. 2005-ci ildə bölmənin Bioresurslar İnstitutunun müasir tələblərə cavab verən binası, 2010-cu ildə isə institutun Biokimyəvi tədqiqatlar laboratoriyasının binası istifadəyə verilib. Həmçinin Nəbatat bağı yenidən qurulub, müasir texnologiyaya malik istilikxana təşkil olunub, Astrofizika Rəsədxanası üçün yeni bina tikilib, elektron kitabxana, Arxeologiya və Etnoqrafiya Muzeyi, Distant Təhsil Mərkəzi, İnformasiya-Kommunikasiya Texnologiyaları otağı, Seysmoloji Xidmət Mərkəzi yaradılıb. Bölmənin 5 elektron portalı istifadəyə verilib. Bölmənin 2005-ci ildən yaradılan "Tusi" nəşriyyatında çap olunan "Xəbərlər" jurnalı 2010-cu ildə beynəlxalq indeks alıb.

Elmi-təşkilat şöbəsinin rəisi, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov çıxışında bildirib ki, kadr potensialının artırılması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilib. Hazırda bölmədə 259 nəfər fəaliyyət göstərir, onlardan 98-i elmi işçidir. Bölmə əməkdaşlarının 2-si AMEA-nın həqiqi, 4-ü isə müxbir üzvləri, 6-sı elmlər doktoru, 55-i isə fəlsəfə doktorudur. Əməkdaşlardan 6 nəfəri professor, 40-ı isə dosentdir. Bölmənin 2006-cı ildən fəaliyyətə başlayan müxtəlif Dissertasiya şuralarında həm Naxçıvan Bölməsinin, həm də müxtəlif elm və təhsil müəssisələrinin əməkdaşları 86 fəlsəfə doktoru və 17 elmlər doktoru dissertasiyaları müdafiə ediblər.



Orxan Bağırov AMEA Naxçıvan Bölməsində mövcud olan elmi potensialın Naxçıvanın hərtərəfli öyrənilməsinə şərait yaratdığını vurğulayaraq bölmənin fəaliyyəti dövründə işıq üzü görən fundamental nəşrlər haqqında məlumat verib. O bildirib ki, ümumiyyətlə, bəhs olunan dövrdə əməkdaşların 208 monoqrafiyası, 200 kitabı, 26 metodik vəsaiti, 8034 elmi məqaləsi və konfrans materialı, 209 tezisi, 21 xəritəsi çap olunub. Bütün bunlarla yanaşı, əməkdaşlar açıq dünya ensiklopediyası olan Vikipediyanın ingilis və rusdilli səhifələrində Naxçıvan tarixi ilə bağlı erməni iddialarını əks etdirən məqalələrin təkzibini həyata keçirib, Azərbaycandilli Vikipediya məlumatlarını redaktə etməklə yanaşı, Naxçıvanla bağlı 180 yeni məqalə yerləşdiriblər. Ötən dövrdə bölmə əməkdaşları 5 tövsiyə, 48 buklet hazırlayıb, 28 patent alıblar. Fəaliyyət dövründə bölmə əməkdaşları 4-ü beynəlxalq olmaqla, 23 qrant layihəsinin qalibi olublar.

Bölmə əməkdaşları tərəfindən Naxçıvan Muxtar Respublikası ərazisində 1200-dən çox tarixi və mədəniyyət abidəsi aşkar olunub və pasportlaşdırılıb.

Məruzəçi ötən dövrdə aparılan tədqiqatlar və əldə olunan elmi nəticələr barədə də ətraflı məlumat verib. O da qeyd olunub ki, "İnteraktiv açıq dərs" layihəsi çərçivəsində AMEA Naxçıvan Bölməsi ilə Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəbləri arasında müxtəlif mövzularda interaktiv açıq dərslərin keçilməsi ölkəmizin təhsil sistemində bir ilkdir.

Qeyd edilib ki, ötən dövrdə beynəlxalq əlaqələrini genişləndirən bölmədə müxtəlif beynəlxalq səviyyəli simpozium və konfranslar keçirilib. Bölmənin əməkdaşları 439 beynəlxalq elmi simpozium və konfranslarda çıxış ediblər.

Bölmənin səmərəli elmi fəaliyyətinin dövlətimiz tərəfindən daim qiymətləndirildiyini, əməkdaşların yüksək dövlət mükafatlarına və fəxri adlara layiq görüldüyünü diqqətə çatdıran Orxan Bağırov bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamına əsasən "Naxçıvan tarixi" çoxcildliyi, akademik İsmayıl Hacıyevin "Naxçıvan Azərbaycanın dövlətçilik tarixində" monoqrafiyası elm sahəsi üzrə Naxçıvan Muxtar Respublika mükafatına, həmçinin AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin "Tarixi mənbələrdə Nuh Peyğəmbər", AMEA-nın müxbir üzvü, mərhum Qadir Qədirzadənin "Dünya və insan: başlanğıcın sonu, sonun başlanğıcı" kitabları Ali Məclis Sədrinin mükafatına layiq görülüb. Həmçinin ötən dövrdə bölmə əməkdaşları dünyanın və respublikamızın bir sıra beynəlxalq nüfuzlu elmi-tədqiqat mərkəzləri tərəfindən mükafatlandırılıb, beynəlxalq qurumların və jurnalların üzvü seçiliblər. Bölmənin 4 elmi əməkdaşı Naxçıvan şəhərində mənzil, 1 elmi əməkdaşı isə torpaq sahəsi ilə təmin edilib.

Tədbirdə AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru, akademik Tariyel Talıbov, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev və Əlyazmalar Fondunun direktoru, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov çıxış edərək bölmələr üzrə əldə olunan nailiyyətlərdən bəhs edib, əməkdaşların qarşıya qoyulan vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəyini, mövcud elmi potensialdan səmərəli istifadə etməklə elmi-tədqiqat işlərini müasir tələblər səviyyəsində aparacaqlarını bildiriblər.

Sonda bölmənin fəaliyyəti ilə bağlı slayd nümayiş etdirilib.

✍ **Gülcamal TAHİROVA**

*Gəncliyimiz, gələcəyimiz*

## Parlaq gələcək təhsillə gələcək

*Qədim Şərur diyarı... Tarixin o üzündən bəri boylanan, inkişaf edib müasirləşdikcə qədimliyini, ululuğunu qoruyub saxlayan yurd yerimiz... Tarixi mədəniyyətinə, mədəniyyəti ədəbiyyatına arxa olub milli dəyərlərimizi, adət-ənənələrimizi qərinələrin saxlancına ərməğan edən doğma diyarımın tarixindən əzəmət, mərdlik, mədəniyyətindən, ədəbiyyatından milli-mənəvi, əxlaqi dəyərlər mənimsəyən insanları, tarixdə iz qoyan böyük şəxsiyyətləri barədə düşünərkən görürük ki, yüz illərdir, Azərbaycan ədəbiyyatına, incəsənətinə dahilər ərməğan edən Şərur rayonu bu gün də öz təhsil ənənələrini uğurla davam etdirir. Muxtar respublikanın hər yerində olduğu kimi, Şərurda da təhsilin inkişafının diqqət mərkəzində saxlanılması uğurların qazanılmasına səbəb olur. Hər bir şagirdin müvəffəqiyyətlərinə görə müəllimlər də, valideynlər də sevinir, çünki onların da etimadları doğrulur, çəkdikləri zəhmət hədər getmir. Elə bugünkü müsahiblərim də ali məktəblərə qəbul imtahanlarında yüksək nəticə qazanaraq rayonun köklü təhsil ənənələrini layiqincə davam etdirən şərurlu gənclərdən bir neçəsidir.*

***Məleykə Cəfərli*** Dərvişlər kənd tam orta məktəbinin məzunudur. O, məktəbi qızıl medalla bitirib. Respublika olimpiadasında Azərbaycan dili və ədəbiyyatı fənni üzrə birinci yeri tutub, qızıl medala layiq görülüb. Ali məktəbə qəbul imtahanının birinci turunda 664 bal toplayan Məleykə bununla kifayətlənməyib. İkinci turda iştirak edərək 670 bal toplayıb. Onunla həmsöhbət oluruq:



– Bu gün ölkələrin inkişafı təkcə iqtisadi göstəricilərlə, təbii sərvətlərlə, əhalinin həyat səviyyəsi ilə deyil, təhsilin inkişaf dinamikası, elmi potensialın olması ilə də ölçülür. Təhsil hər bir insana öz davamlı gələcəyini formalaşdırmaq, zəruri bilik, bacarıq və vərdişləri əldə etmək imkanı yaradır. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin də dediyi kimi: "Qüvvət elmdədir, başqa cür heç kəs, heç kəsə üstünlük eyləyə bilməz!" Dahi şair bu qiymətli misralarla həm zamanının insanlarını, həm də gələcək nəsilləri elmə, biliyə yiyələnməyə səsləyib. Biz doğma Vətənimizin xoşbəxt gəncləriyik. Çünki yaxşı təhsil alıb gələcəkdə Azərbaycanımızın çiçəklənməsi naminə fəaliyyət göstərməyimiz üçün bütün imkanlar mövcuddur. Gözəl, işıqlı sinif otaqları, müasir avadanlıqlarla təchiz edilmiş fənn laboratoriyaları, kompüter zalları, bir sözlə, yaxşı təhsilimiz üçün hər cür şərait yaradılıb. Bizə qalan isə oxumaq, layiqli ziyalı olub gələcəkdə xalqımızın rifahı üçün çalışmaqdır.

Azərbaycan Dövlət İdarəçilik Akademiyasının Hüquqşünaslıq ixtisasını seçmək fikrində olan Məleykə onu da qeyd edir ki, orta məktəbdə qazandığım nailiyyətləri ali təhsil ocağında da davam etdirməyə, doğma diyarımız Naxçıvanın adını hər yerdə uca tutmağa çalışacağam.

***Oruc Vəliyev*** Dizə kənd tam orta məktəbinin məzunudur. O, üçüncü qrup üzrə 633 bal toplayıb: – Bu gün muxtar respublikamızda təhsil sahəsinə xüsusi diqqət yetirilir. Bunun ifadəsidir ki, kəndimizin məktəbi də şəhər məktəblərindən heç də geri qalmır. Burada da şəhər məktəblərində olan imkanların hamısı mövcuddur. Bütün bunlar isə ona xidmət edir ki, hər bir şagird yaxşı oxuya və gələcəyin müəlliminə, vəkilinə, hakiminə çevrilə bilsin.



Naxçıvan Dövlət Universitetini seçmək fikrində olan tələbəyə: "Topladığın yüksək balla müxtəlif universitetləri seçmək imkanın vardır. Niyə məhz bu ali məktəbə üstünlük verirsən?" – sualını ünvanlayanda aldığımız cavab məni çox fərəhləndirdi. Oruc Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisasını heç kimin təsiri və məsafə yaxınlığına görə seçmədiyini dedi və bildirdi ki, təhsil ocağını öz istəyi ilə seçib. Naxçıvanda yüksək səviyyədə təhsil üçün hərtərəfli şərait yaradılıb, bu təhsil ocağının dünyanın məşhur universitetləri ilə əlaqələri mövcuddur. Naxçıvan Dövlət Universiteti son illər tədrisdə ən müasir informasiya texnologiyalarının tətbiq olunduğu, beynəlxalq elmi konfransların keçirildiyi ünvana çevrilib.

Digər müsahibim ***Nərmin Əsgərova*** isə Çomaxtur kənd tam orta məktəbini bitirib. O, ikinci qrup üzrə 622 bal toplayıb:



– Tələbə adını qazanacağım üçün özümü çox xoşbəxt hesab edirəm. Valideynlərimin, müəllimlərimin, bir sözlə, məndən uğurlu nəticə gözləyənlərin ümidlərini doğrultduğum üçün sevinirəm. Sevincimin səbəbləri sırasına fərqli mühitə düşmə, yeni-yeni dostlar, tanışlar qazanma duyğusu da daxildir. Həm də yuxusuz, gərgin gecə və gündüzlərin, stress və narahatlıqların artıq arxada qalması düşüncəsi də məni fərəhləndirir. Topladığım bal istədiyim ixtisası seçməyimə imkan verəcək. Çalışacağam ki, universitetdə də yaxşı oxuyub müəllimlərimin və valideynlərimin etimadını doğruldum.

Nərmin onu da deyir ki, ölkəmizdə insan amilinə, təhsilə çox ciddi diqqət yetirilir. Uğurlarımızın təməlində, ilk növbədə, dövlət qayğısı dayanır. Məktəbimizdə şagirdlərin müasir informasiya texnologiyalarının sirlərinə mükəmməl yiyələnmələri üçün yaxşı şərait vardır. Yeni nəsil kompüterlər, elektron lövhəli sinif otaqları şagirdlərin ixtiyarına verilib ki, bu da təhsildə keyfiyyət dəyişikliklərinə zəmin yaradıb. Bu diqqət və qayğının müqabilində yaxşı oxumalı, gələcəkdə xalqımız üçün yararlı kadr olmalı, daim çalışmalıyıq.

Bəli, onlar tələbə adını qazanmaq şərəfini və sevincini yaşayırlar. Bütün bunlar isə dövlətimizin hər sahədə olduğu kimi, təhsildə də öz vətəndaşının yanında olduğunun göstəricisidir.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Su israfçılığına yol verməyək, sudan qənaətlə istifadə edək



***Kənd təsərrüfatının bütün sahələrinin hərtərəfli və davamlı inkişafı su ehtiyatlarımızdan səmərəli istifadə edilməsindən, onun mühafizəsindən çox asılıdır. Əkilən sahələrdən yüksək məhsul götürmək üçün suvarma suyuna olan tələbatın ödənilməsi ən vacib və təxirəsalınmaz məsələlərdən biridir. Su itkilərinin qarşısını almaqla suvarma suyundan qənaətlə istifadə edilməsi hesabına kanalların faydalı iş əmsalının artırılması, suvarılan sahələrin genişləndirilməsi mümkündür.***

Suvarılan torpaqlardan səmərəli istifadə yolu ilə bol məhsul əldə etmək və torpaq münbitliyini qorumaq üçün tədbirlər görülməlidir. Suvarma sistemlərində su itkisinə qarşı görülən hər cür tədbir böyük əhəmiyyətə malikdir. İrriqasiya və meliorasiya qaydalarına, suvarma normalarına düzgün riayət olunmalı, torpaqların suvarma nəticəsində yuyulmasına yol verilməməlidir.

Bunun üçün də su qıtlığına yol verməmək və əkin sahələrinin vaxtında suvarılmasını həyata keçirmək, eləcə də su itkisinin qarşısını almaq üçün suvarma işinin düzgün təşkili və su bölgüsünə daim nəzarət edilməli, kanal və arxlar təmizlənməli, hidrotexniki qurğuların vaxtında və keyfiyyətlə təmir-bərpası aparılmalı, mütərəqqi suvarma üsullarından istifadə olunmalıdır.

Suvarma zamanı torpağa artıq normada su verilməsi məhsuldarlığı artırmır, əksinə, suyun faydasız istifadəsinə səbəb olmaqla yanaşı, qrunt sularının səviyyəsini artıraraq ərazinin bataqlaşmasına, şoranlaşmasına da şərait yaradır. Suvarma suyundan plansız və səmərəsiz istifadə olunması əkilən sahələrə ciddi ziyan vurur, onun münbitliyini ildən-ilə tədricən azaldır. Sudan səmərəli və qənaətlə istifadə etməklə su itkisinin az olmasına çalışmaq lazımdır. Sızmaya və buxarlanmaya gedən itkinin qarşısını almaq üçün rentabelli suvarma şəbəkələrinin qurulması, mütərəqqi suvarma metodlarının tətbiqi mütləqdir.

Muxtar respublikanın 60 min hektardan artıq torpaq sahəsi suvarılan ərazilərdir. Əkin sahələrinin suvarma suyu ilə təmin edilməsi, bu sahələrin su təminatının yaxşılaşdırılması və hər il növbəti suvarma mövsümünün mütəşəkkil şəkildə başa vurulması üçün Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin balansında olan, muxtar respublika ərazisində yerləşən Araz Su Anbarı istisna olmaqla, 303,5 milyon kubmetr su tutumuna malik 31 sututar, 102 nasos stansiyası, 800 subartezian quyusu və digər hidrotexniki qurğular suvarma mövsümü başlandığı bir gündən etibarən tam istismara hazır vəziyyətə gətirilir. Belə ki, illik yağıntıların miqdarına uyğun olaraq su anbarlarına kifayət qədər su yığılır, hidrotexniki qurğularda əsaslı və cari təmir işləri aparılır.

Həmçinin muxtar respublikada sudan qeyri-qanuni istifadə hallarına qarşı mübarizə aparılır və su məsrəfi, suya qənaətlə bağlı maarifləndirici tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 262-ci maddəsində qeyd edilir ki, su obyektləri və sudan istifadə qaydaları aşağıdakı hallarda pozulmuş hesab edilir:

Su obyektlərində hidrotexniki və digər qurğuların özbaşına tikilməsinə, su obyektlərinin özbaşına tutulmasına, su obyektlərindən istifadə üzrə lisenziya və ya icazə ilə müəyyən edilmiş şərtlərin pozulmasına, sudan özbaşına istifadə edilməsinə, sudan istifadəetmə limitlərinə əməl edilməməsinə, su ehtiyatlarından israfçılıqla istifadə edilməsinə, içməli məişət, texniki və tullantı sularının kənara (çöllərə, küçələrə, rabitə və enerji kommunikasiya şəbəkələrinə) təyinatsız axıdılmasına, su təchizatı şəbəkəsinə qanunsuz qoşulmaqla suyun talanması nəticəsində az miqdarda ziyan vurulmasına səbəb olan qanun pozuntuları qeydə alındıqda.

Bu qaydaların tələblərinə əməl etmək məqsədilə komitə əməkdaşları tərəfindən suvarma mövsümü ərzində mütəmadi olaraq kütləvi informasiya vasitələrində məlumatlar verilir, su istifadəçiləri arasında maarifləndirici söhbətlər aparılır, su itkisinin qarşısını almaq üçün sudan istifadə qaydaları izah olunur.

Melioratorlar bildirir ki, sudan qənaətlə istifadə etməklə, su israfçılığına yol verməməklə, ümumilikdə, muxtar respublikada ekoloji tarazlığı, təbii su ehtiyatlarını qorumuş, bununla da iqtisadiyyatın inkişafına, əhalinin sosial rifah halının daha da yaxşılaşmasına töhfə vermiş olarıq. Bu, doğma diyarımızın hər bir sakininin vətəndaşlıq borcu olmalıdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin mətbuat xidməti***

# Gənclər üçün ekskursiya



12 avqust – Beynəlxalq Gənclər Gününün qeyd olunması, gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların tarixi abidələr və muzeylərlə daha yaxından tanış olması, tariximizin unudulmaması və gələcək nəsillərə çatdırılması məqsədilə gənclərin muzeylərə ekskursiyası təşkil olunub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi tərəfindən təşkil olunan ekskursiyada 45 gənc iştirak edib.

Ekskursiya iştirakçıları Heydər Əliyev Muzeyini, Döyüş Şöhrəti və Tarix muzeylərini ziyarət edərək bu mədəniyyət müəssisələrindəki eksponatlarla yaxından tanış olublar.

# Boksçularımızdan üç medal



Türkiyə Cümhuriyyətinin İqdır şəhərində boks üzrə gecə təşkil olunub.

Çempion boks gecəsində 9 türkiyəli boksçu 9 əcnəbi boksçuya qarşı rinqə çıxıb. Gecədə Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının 3 yetirməsi də iştirak edib.

57 kiloqram çəki dərəcəsində rinqə çıxan Tayfur Əliyev rəqibini məğlub edərək qalib adını qazanıb. Eyni uğuru 75 kiloqram çəki dərəcəsində Sərvər Abdullayev də təkrarlayıb. Alişan İsmayılov isə öz çəki dərəcəsində (46 kiloqram) ikinci olub.

İdmançılarımız təşkilatçılar tərəfindən medal və kubokla təltif ediliblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublikada epidemioloji sabitlik təmin olunub

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına əsasən bu il də yoluxucu xəstəliklərə qarşı profilaktik tədbirlər keçirilir.*



Muxtar respublika ərazisində fəaliyyət göstərən istehsal, topdan və pərakəndə satış məntəqələri, ictimai iaşə müəssisələri, şadlıq sarayları, bərbərxana və gözəllik salonları, təhsil müəssisələri, mehmanxana, həmçinin digər sənaye, kommunal və bütün tibb müəssisələrinin sanitar-gigiyenik vəziyyətinə gigiyena və epidemiologiya mərkəzləri tərəfindən nəzarət olunur. Bu obyektlərdə çalışan işçilər obliqat qrupu kimi gigiyena və epidemiologiya mərkəzləri tərəfindən qeydiyyata götürülür. Bütün obliqat qrupları hər altı aydan bir QİÇS, dəri-zöhrəvi, bağırsaq və qurd xəstəliklərinə görə müayinəyə cəlb edilir.

Bundan başqa, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin iş planına əsasən hər il may ayının 1-dən oktyabr ayının sonunadək muxtar respublika ərazisində mövcud olan bütün su mənbələrindən həftədə iki dəfədən az olmayaraq su və torpaq nümunələri götürülərək mərkəzin Xüsusi təhlükəli infeksiyalara nəzarət laboratoriyasında yoxlanılır.

Həmçinin muxtar respublika ərazisində yerləşən artezian və su quyularından, mərkəzləşdirilmiş su mənbələri və bulaq sularından mütəmadi olaraq su nümunələri mərkəzin Bakterioloji və kommunal gigiyena laboratoriyasına yoxlanmaq üçün göndərilir. Həmin nəzarət, xüsusilə çirkab və kanalizasiya sularının çay sularına qarışmaması məqsədini daşıyır. Bu məqsədlə iyul ayı ərzində bütün rayonlarda çaylar boyunca inzibati ərazi dairəsi üzrə nümayəndəliklərin və daxili işlər orqanlarının əməkdaşları ilə birlikdə Gigiyena və Epidemiologiya mərkəzləri monitorinqlər keçiriblər.

Muxtar respublika ərazisində su ilə keçə biləcək bağırsaq infeksiyalarının qarşısının alınması məqsədilə aparılan profilaktik tədbirlər də davam etdirilir.

Havaların isti keçməsi ilə əlaqədar olaraq ağcaqanad sürfələrinin məhv edilməsi və malyariya xəstəliyinə yoluxma təhlükəsinin qarşısının alınması məqsədilə Araz çayı boyunca bataqlıq ərazilərdə lavriolla deloravasiya işlərinə başlanılıb.

Xatırladaq ki, son 15 ildə muxtar respublika ərazisində malyariya xəstəliyi qeydə alınmayıb.

**Hüseyn ƏSGƏROV**


***İtmişdir***

İbrahimov Qurban Musa oğlunun adına olan AO-0294255 seriya nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.


## Naxçıvan Muxtar Respublikası üzrə 2019-cu ilin iyul ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 1115295 | 111529 | 111607 | 100,1 |
| 2. | Babək rayonu | 728396 | 72840 | 72886 | 100,1 |
| 3. | Şərur rayonu | 678722 | 67872 | 67914 | 100,1 |
| 4. | Ordubad rayonu | 349873 | 34987 | 35008 | 100,1 |
| 5. | Culfa rayonu | 342873 | 34287 | 34307 | 100,1 |
| 6. | Kəngərli rayonu | 236835 | 23684 | 23690 | 100,0 |
| 7. | Şahbuz rayonu | 236194 | 23619 | 23621 | 100,0 |
| 8. | Sədərək rayonu | 80495 | 8050 | 8050 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 9799917 | 1592272 | 1581586 | 99,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **13568600** | **1969140** | **1958669** | **99,5** |

## Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2019-cu ilin iyul ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 5980 | 436,0 | 436,0 | 100,0 |
| 2. | Şərur rayonu | 2753 | 193,4 | 193,4 | 100,0 |
| 3. | Babək rayonu | 2455 | 174,4 | 174,4 | 100,0 |
| 4. | Ordubad rayonu | 1639 | 116,4 | 116,4 | 100,0 |
| 5. | Culfa rayonu | 1056 | 75,0 | 75,0 | 100,0 |
| 6. | Kəngərli rayonu | 1071 | 76,0 | 76,0 | 100,0 |
| 7. | Şahbuz rayonu | 518 | 36,8 | 36,8 | 100,0 |
| 8. | Sədərək rayonu | 264 | 18,7 | 18,7 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 29730 | 2667,7 | 2674,3 | 100,2 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **45466** | **3794,4** | **3801,0** | **100,2** |

**Qeyd:** İyul ayında texniki itki nəzərə alınmaqla daxil olan 45 milyon 466 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 794 min 400 manat olmuş, cəmi 3 milyon 801 min manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerji dəyərinin 100,2 faizini təşkil edir.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 534